# El-el, oba-oba parçalanmış Vətəni bütövləşdirən oğullar!



Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

**Vətən müharibəsi göstərdi ki, Azərbaycanda sağlam əxlaqlı, vətənini sevən, onun azadlığı uğrunda canından keçə bilən qəhrəman gənc nəsil yetişib. 44 günlük müharibədə hər gün xəritədə işğaldan azad edilmiş ərazilərimiz yaşıl haşiyəyə alınırdı və bu haşiyə hər gün biraz böyüyürdü. Gözümüzdə öləzimiş ümidimizi küllərindən alovlandırdılar. İllərdir yurdumuza qara daşların yağışı başlamışdı, qaranlıqlar ələnmişdi alaca gözlü sabahlarımıza. Hər qarış torpaq 19-luqların alaca qanı ilə azad edilirdi, hər sabahımızı qanlarının rəngilə açdı Qara kimi oğullar. Axı nədir ki, 19 yaş?..**

Dövlətçiliyimizin tarixinə qızıl hərflərlə yazılmış misli görünməmiş Qələbə sevinci yaşadan minlərlə ərənlərdən biridir Qara Kamal oğlu Əliyev. Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində komandir və zabit heyəti, cəngavər əsgər yoldaşları ilə çiyin-çiyinə şanlı döyüş yolu keçib.

Gənc əsgər Qara qarşıda bizi gözləyən Qələbənin dadını, şirinliyini ilk dəfə düşmənin hərbi texnika və istehkamlarını məhv edərkən və azad etdikləri torpaqlarımızın ətrindən hiss etmişdi. 19 yaşı tamam olmasına cəmi 11 gün qalmış - oktyabrın 9-da Füzulinin azadlığı uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıqla vuruşaraq, şəhid adlı əbədiyaşarlıq çeşməsindən dil-dodağının təpiməsi keçənəcən, yaralı ürəyinin yanğısı sönənəcən içib. Son nəfəsində 30 il düşmən işğalında inləyən, qanı, canı hesabına azad etdiyi torpaqla, əsgər yoldaşları, doğmaları ilə sanki vidalaşır, halallıq istəyirmiş kimi göz qapaqlarını ağır-ağır açıb-yumaraq Tanrı cənnətinə qovuşub igid oğlumuz Qara.

Rayonumuzun Cırdaxan kəndində 2001-ci il oktyabrın 20-də zəhmətkeş ailədə doğulub, boya-başa çatan Qara qardaşı Nurlan və bacısı Nuranədən sonra Əliyevlər ailəsinin sonbeşiyi idi. Orta məktəbi bitirdiyi il atası Kamal kişi vəfat edir. Atasının ölümündən sonra fərdi təsərrüfat işləri onun öhdəsinə düşüb. Daim anası Minayə xanıma yardımçı olub. Bir il sonra -2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə yollanıb. Respublikanın şimal bölgəsindəki hərbi hissədə hərbin sirlərinə, xüsusilə silah və sursatlardan istifadə etmək qaydalarına mükəmməl yiyələnməklə vəzifəsini ləyaqətlə yerinə yetirib. Arabir evlə telefon əlaqəsi saxlayar, anası Minayə xanımın əhvalı ilə maraqlanar, təskinlik verər, əsgər həyatından maraqla danışarmış. Deyirmiş, narahat olma ana, güclü Milli Ordumuz var, müharibə başlasa, qısa vaxtda düşməni darmadağın edərik.

**Nəhayət, xain düşmənin azğınlığı, daha böyük ərazilərimizə iddiaları və terror hücumları 27 sentyabr sabahını qaçılmaz etdi. Müzəffər Ali Baş Komandan o sabah xalqımızın iradəsini ifadə edərək, azğınlaşmış düşmənə qarşı əks - hücum əməliyyatına başlamaq əmrini verdi.** Qaranın xidmət etdiyi hərbi hissə də döyüşə girmək tapşırığı aldı. Oktyabrın 5-nə qədər evlərinə zəng edən Qara, cəbhə bölgəsində, döyüş meydanında olduğunu anasından gizli saxlayır. Anası deyir ki, arada şeir deyərdi mənə:



**Bilmirəm, yuxudu, nədi,
Bu dünya qırmızı geydi.
Saçlarıma bir əl dəydi,
Anamın əlindən əziz...**

**Bir adayam, qərib ada,
Doğmalarım döndü yada.
Daha mənə bu dünyada,
Nə qaldı ölümdən əziz.**

Acığım tutardı, bu nə şeirdi ay bala, belə şeir demə, sənallah. Möhkəm gülərdi Qara. Narahat olma ay ana, mən yazmamışam ha. Bu gözəl şeir hər kəsin sevdiyi Ramiz Rövşənindir. Və nəhayət "Dəmir yumruq əməliyyatı" adı ilə başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi düşmənin xeyli canlı qüvvəsinin başlarının əzilməsi və ərazilərimizdən qovulması, sonda isə qeyd- şərtsiz təslim aktına qol çəkməsi ilə nəticələndi. Bu cahanşümul Qələbənin təmin olunmasına öz gənclik ömrünü fəda etməklə töhfə verən Qara Əliyev doğulduğu doğma kənddə dəfn olundu.

Kənd qəbristanlığının səssiz bir guşəsində üstü tər gül-çiçəkli tək məzar var. Bu tək məzar Kamal kişinin, Minayə xanımın böyüdüb, boya-başa çatdırdıqları şir ürəkli, polad iradəli övladı şəhid Qaranın məzarıdır. Öz şücaəti ilə nəinki valideynlərinə, doğma kəndinə, oxuduğu məktəbə, rayonumuza, bütöv Azərbaycana baş ucalığı gətirən Qara Əliyevin məzarıdır. Başını uca tut, Minayə ana! Qoy əzəmətin, vüqarın hər yandan görünsün. Sən şəhid oğulun qəhrəman anasısan!

Artıq bir ildir ki, bu yazını qələmə almışam. Düz bir ildir ki, Cırdaxan kənd qəbristanlığında ürəyindən vurulmuş bir gənc uyuyur, 19 yaşı da yox idi hələ. Yurd dərdini əyninə kəfən biçdi, bəylik yerinə. Gələcəkdə xoşbəxt, ağac və güllərlə dolu baxçaslı evi, içində oynayan qayğısız uşaqları ola bilərdi. Amma kənd nəzarlığının bir kənarında sakitcə yatmağı seçdi 19 yaşlı körpə. Orda yatdı ki, millətinin gələcəyi olan körpələr evlərində xoşbəxt yaşasın, ataları yanlarında olsun, güllü baxçaları, alaca gözlü yanan ocaqları olsun. Baş qoydu vətənin daş yollarına. Yaxınlarının ürəkləri ağrısa da, qamətləri əyilsə də "Vətən sağ olsun"- deyirlər.

Şəhidin əmisi Famil kişi söhbətcil olmasa da bizi ondan maraqlandıran suallara cavab aldıq. Hər şey yerindədir, bircə qardaşımın balası



yoxdur- dedi. Anası Minayə xanım onlara göstərilən qayğıya görə Ali Baş Komandandan, Mehriban xanımdan, onun diliylə desək "yerli rəhbərlikdən" razılığını bildirdi. Nə çatışmırsa ediblər. Nəyə ehtiyacımız varsa, edəcəklər. Həyat yoldaşımı itirmişəm, oğlumu itirmişəm. Amma tək deyiləm. Siz sağ olun, qonum-qonşu, qohum-əqraba, vətən sağ olsun, deyir.

Əliyev Qara Kamal oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Qaranın uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!